CƏLALƏDDİN BUDAD OĞLU
Şair Quba

# MƏMMƏLOV CƏLALƏDDİN MİRZAĞA OĞLU
## (Cəlaləddin Budad oğlu )

1953-cü ilin iyul aynın 25-də Azərbayfcan respublikasının Quba rayonunun Buduq kəndində kolxozçu ailəsində anadan olmuşdur.

İlk mətbu əsərini doqquzuncu sinifdə oxuyarkən yazmış, «Dağlar» adlı şeri yerli Şəfəq qəzetində çap olunmuşdur. Sonradan «Səs», «Gedirəm» və bir neçə adsız şeirləri xalq şairi Məmməd Arazın redoktoru olduğu «Azarbaycan təbiəti» jurnalında və «Vaxt» qəzetində dərc edilmişdir. Səkkizinci sinifə qədər Buduq kənd səkkizlik məktəbində oxumuş, orta təhsilini Quba İnternat məktəbində davam etdirərək 1971-ci ildə həmin məktəbi bitirmiş və Bakı Dövlət Universitetinin tarix fakultəsinə daxil olmuşdur. 1976-cı ildə Bakı Dövlət Universitetinin tarix fakultəsini tarixçi və tarix ictimaiyyat müəllimi ixtisası üzrə bitirmişdir.

Universitet illərində mərhum şairlər Ağacavad Əlizadənin, Sabir Almazovun və xalq şairi Nərman Həsənzadənin rəhbərlik etdikləri ədəbi məclislərin fəal üzvü olmuşdur.

Xalq şairləri Məmməd Araz, Hüseyn Arif və şair Əhməd Cəmil onun yaradıcılığına yüksək qiymət vermişlər.

1990-cı ildə xalq şairi Hüseyn Arif onu «Azərbaycan Aşıqlar Birliyinə» üzv seçmişdir.

2000-ci ildən Azəraycan Yazıçılar Birliyinin üzvüdür.

Cəlaləddin Bubad oğlu uzun illər Daxili İşlər Orqanlarında çalışmışdır. Polis mayorudur. Hazırda istehfadadır.

2000-ci ildə «Mən kiməm» adlı şeirlər kitabı çapdan çıxmışdır. (Bakı ş. Şirvan nəşr 2000, 140 səh. Tiraj 500).

Əsərləri Qubada fəaliyyət göstərən «Ay işığı» ədəbi məclisinin almanaxlarında, Azərbaycan, Ulduz ədəbi jurnallarında. Ədəbiyyat, Ekspres, 525-ci qəzet, Vaxt, Azad Azərbaycan, Palitra və bir çox digər mətbu orqanlarında dərc olunmuşdur.

Hazırda azsaylı xalqlardan olan buduqluların həyatını, tarixini və adət-ənənələrini əks etdirəcək «Buduqlular» tarixi publisistik əsəri və «Mən kiməm-2» şeirlər kitabını çapa hazırlayır.

**Cəlaləddin Budad oğlu.**